

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 87 (21.497)

13 may 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ilk növbədə öz adından və bütün Azərbaycan xalqı adından görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin xatirəsinə şəxsən Ramazan Abdulatipov və qardaş Dağıstan xalqı tərəfindən göstərilən hörmətə görə minnətdarlığını bildirib. Dünən Mahaçqala şəhərində Əziz Əliyevin abidəsinin təntənəli açılışı və bununla bağlı Dağıstan Respublikasının başçısının şəxsən qərar qəbul etməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu təntənəli mərasimdə ölkəmizin böyük nümayəndə heyətinin iştirak etdiyini vurğulayıb.

Dövlətimizin başçısı vurğulayıb ki, bu gün həm də Azərbaycanda Dağıstan mədəniyyət günləri başlanır və bu, bizim ölkəmiz üçün önəmli bir hadisədir.

Ramazan Abdulatipov Prezident İlham Əliyevlə əvvəlki görüşləri məmnunluqla xatırladaraq, dövlətimizin başçısının rus dili və mədəniyyəti haqqında söylədiyi dəyərli fikirlərin çox önəmli olduğunu bildirib.

Görüş zamanı əməkdaşlığın müxtəlif sahələrdə perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvanda "BMT Modeli" adlı konfrans keçirilir





***Mayın 12-də Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı öz işinə başlayıb. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması haqqında" adlı birgə layihəsi çərçivəsində keçirilən konfransı BMT-nin İnkişaf Proqramının strateji əməkdaşlıq üzrə müşaviri Məzahir Əfəndiyev açıb.***

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə muxtar respublikada gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri tikilərək və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı regionumuzda gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Bu fərmanla Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis edilib. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Rəssamlar Birliyinin, Yazıçılar Birliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və bu kimi təşkilatların məqsədyönlü fəaliyyəti nəticəsində muxtar respublikada fəal gənclərin sayı gündən-günə artır, istedadlı rəssamlar, yazıçılar, şairlər nəsli yetişir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında hər zaman diqqətdə saxlanılan məsələlərdən biri də təhsilli nəslin yetişdirilməsidir. Bu gün muxtar respublikada fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universiteti ən son dünya təhsil standartlarına cavab verən təhsil müəssisələridir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında diqqətdə saxlanılan sahələrdən biri də gənc idmançılar nəslinin yetişdirilməsidir. Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bütün bunlar da idmançıların təcrübə qazanması və peşəkar idmançı kimi formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Digər bir tərəfdən yaradılan şərait gənclərin asudə vaxtının səmərəli təşkilinə və onların idman federasiyalarına cəlbinə səbəb olub. Bu gün gənc idmançılara qayğı göstərilir, onların adı Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na salınır.

Azad Cabbarov bildirib ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında gənclərin bütün sahələrdə irəli çəkilməsi, onların intellektual səviyyələrinin artırılması, asudə vaxtlarının səmərəli təşkili, vətənpərvər ruhda tərbiyə olunması, beynəlxalq əhəmiyyətli tədbirlərdə yaxından iştirakı, cəmiyyətin və dövlətin idarə olunmasında birbaşa səlahiyyətli olması məsələləri daim diqqətdə saxlanılır. Gənclər də onlara göstərilən qayğıya cavab olaraq özlərini cəmiyyətin ən layiqli təbəqəsi kimi formalaşdırmağa, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin inkişafında potensial imkanlarını səfərbər etməyə çalışırlar.

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, ölkəmizdə gənclər siyasəti sahəsində mühüm nailiyyətlər əldə olunub. Azərbaycan gəncləri dünyada müxtəlif tədbirlərdə elm, təhsil, idman, mədəniyyət və digər sahələrdə ölkəmizi layiqincə təmsil edirlər.

Qeyd olunub ki, keçirilən konfrans gənclərin qlobal müzakirələrdə iştirakı, öz fikirlərini çatdırmaq və mövqeyini əsaslandırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu da hazırkı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və ölkəmizin mövqeyinin düzgün təbliğində böyük rol oynayır.

"Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev və Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək hər iki ali təhsil müəssisəsində beynəlxalq əməkdaşlığın mövcud vəziyyəti və tələbələrin bu sahədəki fəaliyyətlərindən danışıblar.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsakzai çıxış edərək bildirib ki, bu konfrans paytaxt Bakıdan sonra regionlarda təşkil olunan ilk BMT konfransıdır. Konfransın keçirilməsində əsas məqsəd gənclərə səlahiyyətlərin verilməsi, onların diplomatik qabiliyyətlərinin inkişaf etdirilməsidir. Bu, gənclərə təkcə diplomatik qabiliyyətlər yox, həm də onlara iş zamanı müsahibə vermək, davranış qabiliyyətlərini öyrədir ki, bu da onların gələcək fəaliyyətlərində mühüm rol oynayacaqdır. "Biz əlimizdən gələni edəcəyik ki, onlar gələcəkdə Azərbaycanı başqa ölkələrdə layiqincə təmsil etsinlər", – deyən Qulam İsakzai qeyd edib ki, biz gənclərə həm də BMT-nin dəyər və prinsiplərini dünyada təbliğ etməyi, gender bərabərliyini, iqlim dəyişiklikləri ilə mübarizə və digər prinsipləri öyrədəcəyik. Nəzərə alsaq ki, Azərbaycan beynəlxalq arenada olduqca aktivdir, ona görə də azərbaycanlı gənclərin BMT-nin dəyər və prinsiplərini bilməsi çox vacibdir. Bu, bizim Naxçıvanda sonuncu tədbirimiz deyil. Belə layihələr bundan sonra da davam etdiriləcək.

Sonda Bakı şəhərində keçirilən konfransdan bəhs edən videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, tədbirin əsas məqsədi ölkədə BMT Modeli (MUN) hərəkatının institutlaşdırılması, ali təhsil müəssisələrində MUN klublarının təsis edilməsi və onları birləşdirəcək MUN şəbəkəsinin yaradılmasıdır. Mayın 15-dək davam edəcək konfransda BMT Baş Assambleyasının işi simulyasiya ediləcək. Naxçıvan Muxtar Respublikası və Azərbaycanın digər ali təhsil müəssisələri tələbələrinin iştirak etdiyi müzakirələrdə "Ən yaxşı nümayəndə", "Ən yaxşı debütant" və "Ən yaxşı debatçı" nominasiyaları üzrə qaliblər seçiləcək.

✍ Səbuhi HƏSƏNOV

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın inzibati binasında Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri ilə görüş keçirilib.*

## Komissiyada Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri ilə görüş olub



Əvvəlcə tələbələr komissiyanın struktur bölmələri ilə tanış olub, onlara komissiyanın fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verilib, test mərkəzində tələbələrarası müsabiqə keçirilib. Komissiyanın şöbə müdiri Ümid Qurbanov "Dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul qaydaları", şöbə müdiri Mahir Abbasov "Dövlət qulluqçuları reyestrinin aparılması qaydaları", sektor müdiri Türkan Gülməmmədli "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzularında slaydlar vasitəsilə açıq dərslər keçiblər. Görüşdə tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli tələbələrə bu qurum haqqında ətraflı məlumat verərək bildirib ki, Ali Məclis Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə yaradılan komissiya dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilməsini, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi və yerləşdirilməsini, dövlət qulluqçularının etik davranış qaydalarına əməl olunmasına nəzarət sahəsində qanunvericilikdə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Komissiya tərəfindən indiyədək keçirilmiş 9 müsabiqədə 567 nəfər dövlət qulluğu vəzifələrinə təyin olunub. Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının, təqribən, 30 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış, müasir dünyagörüşünə malik, qanunvericilik və informasiya texnologiyaları üzrə bilikləri, habelə məntiqi düşüncə qabiliyyəti olan dövlət qulluqçularıdır.

İsmayıl Qəribli qeyd edib ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam muxtar respublikada kadr potensialının formalaşması, yüksək intellektli mütəxəssislərin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir. Sözügedən sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə komissiyanın təcrübəli əməkdaşları tərəfindən hamiliyə götürülən ixtisasın tələbələri üçün açıq dərslər keçilib, komissiyanın binasında tələbələr üçün istehsalat təcrübəsi təşkil olunub, tələbələr dərslik və yeni elmi nəşrlərlə təmin ediliblər. Komissiyanın sədri bildirib ki, həyata keçirilən bu tədbirlər tələbələrə elmi-nəzəri biliklərlə yanaşı, dövlət qulluğunda təcrübi biliklər aşılamaq və gələcək iş yerlərini müəyyənləşdirmək baxımından mühüm rol oynayır.

Görüşün sonunda komissiyanın keçirdiyi müsabiqənin qalibi olmuş tələbələr mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# İsveçrənin Azərbaycandakı səfiri muxtar respublikanın bir sıra istehsal və mədəniyyət müəssisələri ilə tanış olub

*Xəbər verdiyimiz kimi, İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder mayın 9-da Naxçıvan Muxtar Respublikasına səfər edib. Üçgünlük səfər çərçivəsində diplomat muxtar respublikanın bir sıra istehsal, mədəniyyət müəssisələri və tarixi abidələri ilə tanış olub.*



Qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Səfir “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

Heydər Əliyev Sarayında olan qonağa məlumat verilib ki, sarayda 943 yerlik konsert və 276 yerlik konfrans salonları vardır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Dövlət Filarmoniyası, Rəsm Qalereyası və Film Fondu da sarayın binasında yerləşir. Sarayın ikinci mərtəbəsindəki 198 nəfərlik konfrans zalında üç dildə sinxron tərcümə aparmaq üçün texniki avadanlıqlar quraşdırılıb.

Rəsm Qalereyasında olan səfirə bildirilib ki, 1982-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yaradılmış qalereyada Azərbaycan, o cümlədən Naxçıvan, həmçinin Rusiya rəssamlarının 300-dən çox əsəri nümayiş etdirilir. Azərbaycanın xalq rəssamlarının əl işlərinin toplandığı ekspozisiya zalında yağlı boya ilə kətan üzərində işlənən “Ulu öndər”, “Zərifə Əliyeva”, “21-ci əsr – Heydər Əliyev” əsərləri ölkəmizin müasir tarixini göz önündə canlandırır. Qalereyadakı digər maraqlı əsərlər də Azərbaycan rəssamlıq məktəbinin zəngin ənənələrini və müasir inkişaf istiqamətlərini, müstəqil Azərbaycanın reallıqlarını dolğun əks etdirir.

Sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gələn İsveçrə səfirinə bu qalanın və Naxçıvanın şəhər mədəniyyətinin tarixi barədə ətraflı məlumat verilib.

Naxçıvan Dövlət Xalça Muzeyində qonağa bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunub. 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3246 eksponat var. Burada Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində müəyyən tədbirlər görülür.

Mayın 10-da İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində olub.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim “Qeysəriyyə” binası ilə tanışlıq zamanı qonağa XII əsrə aid olan bu tarixi abidə haqqında ətraflı məlumat verilib. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş bu binada indi tarixi eksponatlar sərgilənir. “Qeysəriyyə” dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir. Bina 1990-cı ilin may ayından Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

Darıdağ Arsenli Su Müalicəxanası ilə tanışlıq zamanı bildirilib ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada Kudova, Almaniyada Dürkgeym, Rusiyada Sineqorsk sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan daha üstündür.

Naxçıvan şəhərindəki Biznes Mərkəzinə gələn səfirə məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya məkanı kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirib. Əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodoloji dəstək göstərilməsidir.

Diqqətə çatdırılıb ki, hazırda burada muxtar respublikada 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Sərgidə Naxçıvanın yerli məhsulları olan karpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər 900-dən çox çeşiddə müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan “Gəmiqaya Holdinq”, “Dizayn Holdinq”, “Cahan Holdinq” şirkətlər ittifaqları, Zümrüd Kiçik Müəssisəsi, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Mayın 11-də İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Badamlı” zavodunda olub. Burada bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Filip Ştalder Sədərək rayonuna gələrək düşmənlə sərhəddə yerləşən Heydərabad qəsəbəsi, daha sonra isə Babək rayonundakı Uzunoba İstirahət Kompleksi ilə də tanış olub.

Mayın 11-də İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalderin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

## *İsveçrənin Azərbaycandakı səfiri:* “Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır”

***“Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. Naxçıvanın çoxsaylı mineral və müalicə əhəmiyyətli su mənbələri, zəngin mətbəxi, qədim tarixi və mədəniyyəti turizmin inkişafı üçün geniş perspektivlər vəd edir”.***



Bu fikirləri mayın 9-11-də Naxçıvan Muxtar Respublikasında səfərdə olan İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder “Şərq qapısı” qəzetinə müsahibəsində deyib.

Səfir qeyd edib ki, Naxçıvanda yaradılan yüksək infrastruktur onun turizm potensialını artırır. Burada dünyanın müxtəlif ölkələrindən gələcək turistlər üçün çox gözəl şərait, imkanlar vardır.

“Muxtar respublikanın təbii cazibədarlığı dünyadakı turistləri bura səfərinə zəmin yaradır. Onlar Naxçıvana gələ bilərlər və məsələn, şəxsən mənim özüm də ənənəvi turizmdən kənara çıxan bir insan kimi bu sahədə Naxçıvanda böyük imkanların şahidi oldum”, – deyən Filip Ştalder bildirib ki, səhiyyə turizmi baxımından Duzdağ Fizioterapiya Mərkəzi çox önəmli və qeyri-adi bir məkandır. O, ailə üzvləri ilə birlikdə bir gecə Duzdağda qaldığını qeyd edərək vurğulayıb ki, dünyanın heç bir yerində belə imkanlar yoxdur.

İsveçrənin səfiri Azərbaycanda və regionda çox məşhur olan Naxçıvanın mineral sularının istehsal olunduğu “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Badamlı” zavodu ilə də tanış olduğunu deyib: “Ümumiyyətlə, mən qeyd etmək istəyirəm ki, mineral sularla bağlı Naxçıvan bəxti gətirmiş regionlardan biridir. İsveçrə Əməkdaşlıq Ofisi uzun illər Naxçıvanla əməkdaşlıq edib, kəhrizlərin bərpasında böyük işlər görüb”.

Səfərinin çox maraqlı, səmərəli və uğurlu keçdiyini vurğulayan diplomat qeyd edib ki, Naxçıvana heyran qaldığı üçün bura yenidən səfər etmək arzusundadır.

**Rauf ƏLİYEV**

# Naxçıvanda növbəti açıq ürək əməliyyatları aparılıb

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.***

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qurulmuş müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada mürəkkəb cərrahi əməliyyatların aparılmasına imkan verir. Yüksəkixtisaslı həkim briqadaları yerli həkimlərlə birgə hər il çoxlu sayda göz, TUR, açıq ürək, neyrocərrahi, travmatoloji, uroloji, invaziv yolla ürək əməliyyatlarını uğurla həyata keçirirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin yüksəkixtisaslı həkim heyəti 2015-ci il ərzində 9 dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olub, bu mərkəzin Kardiocərrahiyyə şöbəsinin əməkdaşları ilə birgə 237 nəfərdə müayinə, 107 nəfərdə açıq ürək əməliyyatı, 1 nəfərdə periferik damar əməliyyatı həyata keçirib. 14 nəfərdə angioqrafiya aparılıb, ehtiyacı olan 5 nəfərə stend qoyulub. Bu, yerli həkimlərin peşə hazırlığının yüksəldilməsində mühüm rol oynayıb. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yerli həkimlər tərəfindən müstəqil şəkildə 192 nəfərdə koronarangioqrafiya əməliyyatı aparılıb, ehtiyacı olan 17 nəfərə stend qoyulub.

Yaranmış ənənə cari ildə də davam etdirilir. Ürək və damar xəstəlikləri şöbəsinin müdiri, tibb elmləri doktoru Rəşad Mahmudovun rəhbərlik etdiyi yüksəkixtisaslı həkim briqadası bu il ikinci dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə gələrək ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə may ayının 6-dan açıq ürək əməliyyatlarına başlayıb. Yerli həkimlər tərəfindən müayinə olunaraq qeydiyyata götürülmüş və əməliyyatı planlaşdırılmış xəstələr üzərində açıq ürək əməliyyatı həyata keçirilib. Kardiocərrahlardan Kənan Əsədovun, Namiq Mirzəyevin, həkimlərdən Venera Kərimovanın, Nurlan Mahmudovun, reanimatoloq-anestezioloq və əməliyyat tibb bacılarının təmsil olunduğu heyət xəstələri koronarangioqrafiya, exokardioqrafiya, elektrokardioqrafiya və digər kardioloji müayinələrdən keçirib, xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırıb, onlara tibbi məsləhət və tövsiyələr verib.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiovaskulyar cərrahı İntiqam Fətullayev, kardiocərrah Cabir Gülmalıyev, reanimatoloq-anestezioloq Şahin Mazanov, reanimasiya, anesteziologiya və əməliyyat tibb bacıları da yaxından iştirak ediblər. Briqadanın birhəftəlik fəaliyyəti zamanı, bütövlükdə, 23 açıq ürək əməliyyatı aparılıb.

# Ordubadda humanitar aksiya başa çatıb

***Bakı şəhərində fəaliyyət göstərən Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə may ayının 7-dən 10-dək Ordubad rayonunda növbəti humanitar aksiya keçirib.***

Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan 3 günlük aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 23 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Cərrahlardan Fariz Camalov, Qənimət Bəylərov, kardioloq Sevil Abbasova, otolaringoloq Məzahir Quliyev, nevropatoloq Ülkər Abbasova, ginekoloqlar Kənarə Abdullayeva, Aytəkin Hacızadə, allerqoloq Reyhan Paşayeva, endokrinoloq Aynur Hümmətova və başqalarının səyi ilə aksiya zamanı 1901 nəfər ambulator müayinə ilə əhatə olunub. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi lazımi şərait yaradıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə tibbi xidmət göstərib.

Cərrahi müdaxiləyə ehtiyacı olan 30 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıblar. Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar.

Yüksəkixtisaslı heyət yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədib. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

Aksiyada iştirak edən Ordubad rayonunun Xanağa kəndindən Zəminə Cəlilova bildirib ki, övladının cərrahi müdaxiləyə ehtiyacı var idi. Rayon Mərkəzi Xəstəxanasında belə bir aksiya keçirilməsi bu ehtiyacın ödənilməsinə imkan verib. Aksiyanın ilk günü övladı üzərində cərrahi əməliyyat aparılıb. Palataya yerləşdirilən xəstə üçgünlük həkim nəzarətindən sonra evə buraxılıb. Valideyn belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlıq edib.

Ordubad şəhər sakinlərindən Zöhrə Məmmədova, Hafiz Qarayev, Nəsirvaz kənd sakini Səkinə Həsənova və başqaları da onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkim briqadası bu ilin yanvar ayında Şərur Rayon Mərkəzi Xəstəxanasında əhalini tibbi müayinədən keçirib, üç gün ərzində 2504 pasiyent üzərində müayinə aparıb, ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz olmaqla, 75 əməliyyat həyata keçirib. Əməliyyatların hamısı uğurlu olub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikanın yaşayış məntəqələrində müasir rabitə sistemlərinin quraşdırılması işləri aprel ayında da davam etdirilmişdir. Belə ki, ötən ay muxtar respublika ərazisində 5 kilometrə yaxın fiber-optik kabel xətti çəkilmiş, 255 yeni telefon nömrəsi istifadəyə verilmişdir.*

## Aprel ayında muxtar respublikada 255 yeni telefon nömrəsi istifadəyə verilmişdir

Muxtar respublikada genişzolaqlı internet şəbəkəsinin əhatə dairəsi genişlənir, internet istifadəçilərinin sayı artır. Ötən ay Ordubad rayonunun Kotam, Bist, Nəsirvaz, Əlhi və Xurs kəndlərində, həmçinin artan tələbat nəzərə alınaraq Naxçıvan şəhər mərkəzi avtomat telefon stansiyasında yeni DSLAM avadanlıqları quraşdırılmış, genişzolaqlı “Asinxron Rəqəmsal Abunəçi Xətləri” texnologiyası vasitəsilə 317 abunəçi internetlə təmin olunmuşdur. Əhaliyə göstərilən elektron xidmətlərin genişləndirilməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, ötən ay muxtar respublikanın elektron hökumət portalında cari yeniləmə işləri aparılmış, Naxçıvan Dövlət Televiziyasının internet saytı hazırlanmış və onlayn test yayımına başlanılmışdır.

Yeni texnologiyalar üzrə ixtisaslı kadrların hazırlanması müasir dövrdə qarşıda duran əsas vəzifələrdəndir. Muxtar respublikada bu iş daim diqqətdə saxlanılır. Ötən ay Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kompüter kurslarında 22 dinləyici təhsil almışdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Məmməd Səid Ordubadinin Şərqi və Qərbi təsvir edən əsərlərindən biri olan “İki cocuğun Avropaya səyahəti” əsərini bir neçə dəfə mütaliə etmişəm. 1908-ci ildə Bakıda Haşımbəy Vəzirovun redaktorluğu ilə nəşr edilən “Tazə həyat” qəzetində əski əlifba ilə çap olunmuş bu əsəri oxuyarkən düşünürdüm ki, Qərb ölkələrini rəğbət boyaları ilə təsvir edən böyük tarixi romanlar müəllifi Məmməd Səid Ordubadi bəs özü nə düşünürdü?*

## Naxçıvan dünən

# Tarixi romanlar banisinin arzuları



Qeyd edək ki, adıçəkilən əsərdə iki iranlı gəncin Avropaya səfəri təsvir olunur. Onlar Ordubaddakı tələbə yoldaşlarına məktublar yazırlar. Məmməd Səid Ordubadinin bu əsərində Şərq və Qərbin müqayisəsi, milli oyanışa, dirçəlişə çağırış motivi öz əksini tapıb. Müxtəlif Avropa ölkələrindən göndərilmiş 10 məktub əsasında qurulmuş əsərə diqqət etdikdə, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda o dövrün çətinlikləri gəlir gözlərimiz önünə, indi analoqu olmayan böyük və sürətli inkişafın şahidləri olduğumuzu bir daha dərk edirik. Ədib yazırdı:

“Berlin küçələri nəhayət, təmiz olduğundan maada (başqa), caddələr elektrik ziyası ilə tənvir edildiyindən qırx qədəm (addım) kənarda səyahət edən nəmsə xanımlarının kirpiklərini də asanlıqla görmək mümkündür. Qardaşım, məlumunuz olsun ki, Berlin şəhərindən layiqincə sizə məlumat verməк istəsəm “Min bir gecə” hekayəsi kimi bir divan yazmaq lazım gəlir. Fəqət sizə ərz edirəm ki, Berlin şəhərinin binalarının əzəməti dünya memarlıq sənətinin gözəlliyi ilə şöhrət və mübahat qazanmışdır. Təsisati-elmiyyənin (elmi müəssisələrin) ikmal dərəcəsinə yetməsi, caddələrin vüsət və zinəti, ədəbiyyat və mətbuatın, sənaət və ticarətin tərəqqisi ilə Paris və Londondan başqa cümlə cahana təvəffüq (üstünlük) etmişdir. Berlinin Elmi-Hüquq Akademiyası, Dillər Darülmaarifi, elmi-asari-qədimə cəmiyyəti həştad nəfər fərasətli və dirayətli müəllimlərin öhdəsinə verilib. Hökumət və millətin də pulu kamali-məmnuniyyətlə bu yollarda sərf edilməkdədir. Darülfünunlarda Osmanlı-türk tələbələri görünürsə də, Germaniya ilə Osmanlının həmticarət olmasından naşidir. Burada müəllimlərin uşaqlarına o qədər nəvazişli və məhəbbətli gördük. Almanlar vətən və millətlərinə lazım olmayan sözlər danışmayıb, ancaq danışıqları millət və vətənə aiddir”.

Avropa qadınlarını azad və firavan təsvir edən sənətkar əsərində alman qadınlarının şuxluqları və gözəlliyini, Belgiya xanımlarının isə sadəliyi və ismətini müqayisəli şəkildə oxuculara təqdim edir. Adət-ənənələrinə riayət edən Belgiya xanımlarının sənətkara daha xoş gəlməsinin səbəbi, təbii ki, həmin qadınların öz adət-ənənələrinə bağlılığı ilə izah edilə bilər. Onların geniş təsvirinə yer verilən “Beşinci məktub”da sənətkar bir meşədə (istirahət guşəsində) Beljik qadınının öz körpəsinə verdiyi öyüdlər və tarixi məlumatlardan bəhs edir. Çox güman ki, bu səhnəni təsvir etməklə yazıçı demək istəyir ki, uşağı tərbiyə etmək, ilk növbədə, ailə fərdlərinin vəzifəsidir. Ailə fərdlərinin savadlı olması uşağın gələcək həyatında böyük rola malikdir. Əsərin bu hissəsində Beljik qadının biliyi ilə bərabər, övladına olan dərin məhəbbətinin də təsviri verilir: “Sonra elmli xanım uşağına Misirdə, Hindistanda İngiltərənin istibdadını açınca: Bala: Ana, onların uşaqları bəs necə yaşayırlar? Deyincə anası uşağı ağuşuna (qucağına) çəkincə bizi böht və heyrət içində qoydu”.

Fransızları isə elmə, biliyə qiymət verən xalq kimi tanıdan ədib digər məktubda yazırdı: “Parisdə kor və kar kimsələr üçün hərflərin şəklini təşkil edib, elm oxudurlar. Müsəlman da elmsiz qalmış. Şəhla gözlü cavanlarımıza bir ibrət daha!..

Paris küçələrinin gözəlliyi və elmi təsisatlarının bərəkəti ilə cümlə Yevropa paytaxtlarına təfəvvüq etmişdir ki, dünyanın hər guşəsindən özünə tələbə və misafir cəlb etmişdir. Bugünkü gündə elə bir dil, elə bir kitab yoxdur ki, burada tələbələrə təlim və tədris edilməsin. Parisdə dilə, əxlaqa və tarixə dair o qədər əsərlər, o qədər rəsmlər tədarük və tərsim edilmişdir ki, günü-gündən Fransa mətbuatının cavanlanmasına böyük isbatdır. Fransızlar ümumi dilçiliyin təftişində o qədər çalışmışlar ki, kürəyi-ərzdə iki min dərəcəsinə çatmış qədər təkamül edilən dillər haqqında məlumati-nafiə kəsb və əxz etmişlər. Berlində olduğu kimi, Parisdə də füqəra və qeyrilərinə tədavi üçün pulsuz xəstəxanalar vardır. Parisdə on üç gün dolanıb bir nəfər olsa sail (dilənçi), əl açan görmədik. Parisdə yoldan çıxanları yola gətirmək, fəna, məsləksiz və bədrəftarda olanları islahedici cəmiyyətlər vardır ki, hər birisi öz millətlərinə özlərincə böyük xidmətlər əda edirlər. Parisdə muzeylərin, teatrların, Kral saraylarının və sair elmi təsisatların tamaşalarını yazacaq olarsam, əqəllən Parisdə iki il qalmaq lazım olar. Parisdə “Sarbon” darülfünunu, “Kollej de Frans” və “İnstitu de Frans” ali məktəb binaları dünyaya əngüştnüma olduğunu da yazmaq istəyirəm”.



## və bu gün

# Reallaşan arzuların hekayəsi

***Əsərin, sadəcə, iki şəhərin gəzintisinə həsr olunan hissələrini oxuduqda, görəsən, niyə Məmməd Səid Ordubadi qədər həyəcanlanmadım? Ağlıma gələn ilk fikir isə bu oldu: “Bunların ki, hamısı hal-hazırda Naxçıvanda mövcuddur”. Və bir anlıq düşündüm: Görəsən, böyük tarixi roman ustadı Naxçıvanın indiki inkişafını görsəydi, nə düşünərdi?***

Bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu inkişaf strategiyası, aparılan geniş tikinti-quruculuq işləri paytaxt şəhərimiz Naxçıvanla yanaşı, rayon mərkəzlərini, qəsəbə və kəndlərimizi də əhatə edib. Müasir arxitektura üslubunda inşa edilərək istifadəyə verilən yeni sosial obyektlər, inzibati binalar, yaradılan istehsal sahələri, açılan yeni iş yerləri, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə və nəticə etibarilə, insanların məskunlaşmasına, onların həyat səviyyələrinin yaxşılaşmasına, bölgələrin inkişafına səbəb olub. Zəngin tarixi və mədəniyyəti, gözəl təbiəti ilə seçilən qədim Naxçıvan bu gün həm də abad yaşayış məntəqələri ilə Azərbaycanın nümunəvi regionlarından birinə çevrilib. Naxçıvanda fəaliyyət göstərən uşaq bağçaları körpələrimiz üçün ideal rahatlıq bəxş edir. Orta məktəblərimizdə şagirdlərin yüksək səviyyədə bilik almaları üçün hərtərəfli şərait yaradılıb.

Naxçıvanda mədəniyyətin inkişafına diqqət də yüksək səviyyədədir. Burada fəaliyyət göstərən kitabxanaların sayı getdikcə artır və belə mədəniyyət müəssisələri klassik və müasir Azərbaycan, həmçinin dünya klassiklərinin ən görkəmli əsərləri ilə zənginləşdirilib. Belə ünvanlarda dünyanın bir çox ölkəsində nəşr olunan bədii, tarixi, elmi, psixoloji əsərlər yer alıb. Avropa kitabxanalarında “Səfillər” əsərinə işarə edərkən heyrətlənən Məmməd Səid Ordubadi kitabxanalarımızın indiki zənginliyini görsəydi, yəqin ki, çox şad olardı.

Naxçıvanda elmin inkişafı yeni müstəviyə qədəm qoyub. Muxtar respublikanın ali məktəbləri dünyanın bir çox ölkələrindən elm, təhsil almaq üçün Vətənimizə üz tutan tələbələrə qucaq açıb. Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu elm və təhsil bazası ilə birlikdə tələbələr üçün yaradılan ekzotik və rahat yataqxanaları və sair başqa şəraiti ilə göz oxşayır. Bu gün Naxçıvanda tələbə olmağa nə var ki?

Məmməd Səid Ordubadi Parisdə küçələrdən gülüş səsləri eşidildiyini yazırdı. Bəli, bu gün firavan həyat yaşayan həmvətənlərimizin gəzib-dolaşdığı küçələrimizdən gülüş səsləri eşidilir. Bu gün gənclik xoşbəxtdir.

Naxçıvanda fəaliyyət göstərən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi bu gün elmin inkişafında əsas baza rolunu oynayır. Regionda dilçilik, ədəbiyyatşünaslıq, tarix və elmin digər sahələri üzrə sanballı monoqrafiyalar yazılır, elmi-tədqiqat işləri aparılır. Bu gün elm müəssisələrimiz xaricdən gələn professorları qarşılayır. “Şərq qapısı” qəzeti ilə əməkdaşlıq etmək istəyən xarici müxbirlərin təklifləri ilə qarşılaşırıq. Bu gün saytlarımız, elektron kitablarımız vasitəsilə dünyaya inkişafın hekayəsini danışırıq.

Qeyd edim ki, yalnız sağlam insanlar deyil, qayğıya ehtiyacı olanlar da bu inkişafdan faydalanırlar. “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası nəticəsində bu kateqoriyadan olanların təhsilə cəlbi sistemli xarakter alıb, inklüziv təhsil üçün əsaslı zəmin hazırlanıb. Proqramın icrası zamanı sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı istiqamətində ardıcıl tədbirlər görülüb və bu gün də görülür. Bunun nəticəsidir ki, sağlamlıq imkanları məhdud uşaqlar məktəbəqədər tərbiyə müəssisələrinə, ümumtəhsil və musiqi məktəblərinə, məktəbdənkənar təhsil müəssisələrinə və idman qruplarına cəlb edilirlər. Hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar da diqqətdə saxlanılıb, onların təhsilə cəlbi məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, audio və elektron kitabxana xidmətləri yaradılıb. Bununla yanaşı, görmə qabiliyyəti məhdud şəxslərə brayl kurslar təşkil edilib. Nitq problemləri olan uşaqlar üçün defektoloji bölmə yaradılıb.

Naxçıvanda qadınlar yüksək mövqeyə malikdirlər. Qadınların hüquqlarının qorunması diqqət mərkəzindədir. Onların hər sahədə fəallığı təmin olunub.
















**Naxçıvanda bərqərar olunmuş sabitlik və asayiş digər regionlara nümunə gücündədir. Naxçıvanlılar yaşadıqları torpağı dərin məhəbbətlə sevirlər, qoruyurlar. İnsanlar bu günə şükür edir, gələcəyə daha böyük ümidlərlə baxırlar. Əminəm ki, bu gündən sonra naxçıvanlılar daha arzularının deyil, reallaşan arzularının hekayəsini yazacaqlar.**

**Nərgiz İSMAYILOVA**

## Kross qaçışı üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilən "Heydər Əliyev kuboku" uğrunda kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız atletləri arasında keçirilən Naxçıvan Muxtar Respublika turniri başa çatıb.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi turnir "Duzdağ" magistral yolunun 5 kilometr məsafəsində keçirilib. Beynəlxalq yüngül atletika qaydalarına uyğun olaraq təşkil edilən "Heydər Əliyev kuboku" uğrunda kross qaçışına 150-yə yaxın atlet qatılıb.

Turnirin bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov bildirib ki, ümummilli liderin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş birincilikdə oğlanlarla yanaşı, qızların da çoxluq təşkil etməsi sevindiricidir. Bu idman növünün muxtar respublikada inkişafı üçün hər bir şərait yaradılıb. Bugünkü yarış bunu bir daha göstərdi.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov isə çıxışında vurğulayıb ki, təhsil müəssisələrində idmanın inkişafına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, şagirdlərimiz və tələbələrimiz keçirilən yarışlarda, turnirlərdə hər zaman yüksək nəticələr əldə edirlər. Ümummilli liderimizin xatirəsinə həsr olunmuş bu turnirdə idmançıların mübarizliyi, qalib ruhunda olması bizi çox sevindirdi.

Muxtar respublika turnirinin yekun nəticəsinə əsasən, oğlanlar arasında "Rabitəçi" klubunun üzvü Kərim Quliyev bütün rəqiblərini arxada qoyaraq qalib adını qazanıb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Cavid Qasımov ikinci, Heydər Əliyev adına Hərbi Liseyin kursantı Qurban Abdullayev isə üçüncü olublar.

Qızların mübarizəsində isə Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Aytən Qasımova finiş xəttinə hamıdan tez çatıb. Digər iki pillədə isə Naxçıvan Tibb Kollecinin tələbəsi Gülafət Müslümova və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Qaratel Salahova qərarlaşıblar.

Sonda oğlan və qızlar arasında ilk 10 pilləni tutan idmançılara diplom və hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## *Faiq Həsənov:* "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalı yeni istedadları üzə çıxaracaq

***Naxçıvan mötəbər bir şahmat bayramına – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə keçirilən "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalına ev sahibliyi edir. Hakimlərin və iştirakçıların maraqlı fikirlərini oxucularımızla bölüşməyi peşə borcu bilirik:***



"Gənclərin mənəvi tərbiyəsində, zehni inkişafında mühüm vasitə olan şahmat Azərbaycanda yüksək templə inkişaf edən və çox sevilən bir idman növüdür. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan şahmatçılarını daim diqqət və qayğı ilə əhatə edib, sonrakı illərdə də bu proses uğurla davam etdirilib. Bu qayğının nəticəsi olaraq şahmatçılarımız dünya miqyaslı yarışlarda qazandıqları uğurlu nəticələrlə xalqımızı sevindirirlər. Azərbaycanın şahmat üzrə yığma komandası dünyanın ən güclü komandaları arasında ön sıralardadır. Bu yarış haqqında isə onu deyə bilərəm ki, blokadada olan muxtar respublikanın belə bir şahmat bayramına ev sahibliyi etməsi regionun sürətli inkişafından, şahmat idman növünə göstərilən yüksək dövlət qayğısından xəbər verir. Bu gün qətiyyətlə deyə bilərik ki, özünün sürətli inkişafı ilə diqqətləri cəlb edən, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Naxçıvan Muxtar Respublikası həm də beynəlxalq idman yarışlarının keçirildiyi region kimi tanınıb və şöhrət qazanıb. Qədim diyar dünyanın şahmat arenasında da özünün layiqli yerini tutub, beynəlxalq şahmat festivallarının keçirildiyi diyar kimi tanınıb. Naxçıvanda şahmat üzrə mötəbər yarışların keçirilməsinin artıq ənənə halını alması muxtar respublikanı şahmat diyarı kimi tanıtmaqla yanaşı, Naxçıvan şahmatçıları arasında yeni istedadları üzə çıxaracaq. Naxçıvanda şahmatın inkişafına göstərilən qayğı nəticəsində yerli şahmatçılar arasında beynəlxalq dərəcəli şahmatçıların yetişməsi sübut edir ki, burada bu idman növü üzrə məqsədyönlü və planlı işlər aparılır".

Bu sözləri Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, yarışın baş hakimi Faiq Həsənov qəzetimizə müsahibəsində dedi.

Müsahibimiz onu da bildirdi ki, artıq altıncı dəfədir, keçirilən beynəlxalq şahmat festivalında dünyanın müxtəlif ölkələrindən onlarla tanınmış şahmatçı iştirak edir. Hələ yarışlar başlamazdan öncə yüzlərlə şahmatçı federasiyaya müraciət edərək bu festivalda iştirak etmək istədiyini bildirmişdi. Bu da ondan irəli gəlir ki, Naxçıvanda beynəlxalq səviyyəli şahmatçıların yarışması, asudə vaxtını səmərəli keçirməsi, eləcə də istirahəti üçün hər cür şərait var. Bundan başqa, festivalın mükafat fondu da kifayət qədər cəlbedicidir. Təkcə güclülərdən ibarət "A" qrupunda 10 ölkənin 48 zəka sahibindən 44- nün müxtəlif titullara sahib olması bu yarışa şahmatçıların böyük marağından xəbər verir. Onlar bir daha görürlər ki, Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevə nə qədər dərin hörmət və ehtiram var, dahi rəhbərin xatirəsinə həsr edilən festivalda hər bir kiçik təfərrüata xüsusi diqqət yetirilib, təşkilatçılıq zərgər dəqiqliyi ilə aparılıb. Məncə, bu, blokadada olan Naxçıvan üçün böyük nailiyyətdir və festivalın əhəmiyyətini son dərəcə artırır. Naxçıvanı dünyadan ayrı salmaq istəyənlərə ən yaxşı cavabı da elə Naxçıvan özü verir: idman, mədəniyyət, incəsənət və digər sahələrdəki uğurları ilə yalnız fiziki blokadada olduğunu bütün dünyaya sübut edir, mənən bütün sərhədləri aşır, inkişaf edən dünyaya inteqrasiya olunur. "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalı buna əyani sübutdur.

Faiq Həsənov onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının şahmat məktəblərində yaradılan şərait ölkə miqyasında nümunə gücündədir. Bundan başqa, orta məktəblərdə şahmat fənninin tədrisi üçün hərtərəfli şərait yaradılmasını gələcəyə hesablanmış addım kimi qiymətləndirmək olar.

Artıq üçüncü tur arxada qalıb. "B" və "C" qruplarında çox sayda Naxçıvan şahmatçısının bu turlar ərzində inamlı çıxışları bu sahəyə göstərilən qayğıdan xəbər verir.

**✍ Səbuhi HÜSEYNOV**

## Festivalın 3-cü turu Naxçıvan şahmatçıları üçün uğurlu olub



***"Naxçıvan - 2016" Beynəlxalq Şahmat Festivalının 3-cü turu keçirilib.***

"A" qrupunun bu turu daha çox liderlərin mübarizəsi ilə yadda qalıb. Belə ki, ilk iki turu itkisiz başa vuran 4 zəka sahibi bu turda üz-üzə gəlib. Şəhriyar Məmmədyarov Azər Mirzəyevi, Eltac Səfərli isə Vüqar Əsədlini sınağa çəkib. Ehtiyatlı oyun sərgiləyən beynəlxalq qrossmeysterlər ağ-qara taxtanı heç-heçə tərk ediblər. Turnir cədvəlində üst pilləni maraqlandıran digər oyunda beynəlxalq qrossmeyster Vüqar Rəsulov FİDE ustası Andrey Mustafini məğlub edib. "A" qrupunun ən çox əmsalı olan şahmatçılarından biri, ukraynalı beynəlxalq qrossmeyster Yuriy Kuzubov (2632) iki turu uğurla başa vurduqdan sonra 3-cü turda azərbaycanlı qrossmeyster Zeynəb Məmmədyarova ilə qarşılaşıb. Ağ-qara taxtanı qalib kimi tərk edən ukraynalı beynəlxalq qrossmeyster xallarının sayını 2,5-ə yüksəldib.

Günün ən maraqlı oyunlarından biri isə almaniyalı qrossmeyster İqor Xenkin (2575) ilə türkiyəli 17 yaşlı FİDE ustası Sevgi Volkan (2210) arasında olub. Gərgin görüş rəqiblərin xalları yarı bölməsi ilə nəticələnib. Festivalın favoritlərindən biri hesab edilən azərbaycanlı beynəlxalq qrossmeyster Nicat Abasov bu turu da məğlubiyyətsiz başa vurub. İlk iki turda heç-heçə edən beynəlxalq qrossmeyster bu turda digər azərbaycanlı beynəlxalq qrossmeyster Türkan Məmmədyarovanı (2257) ağ-qara taxtada üstələməyi bacarıb. Monqolustanlı zəka sahibi, beynəlxalq qrossmeyster Enxtuul Altan Ulzi də bu turda sevinənlərdən olub. O, azərbaycanlı beynəlxalq qrossmeyster Zaur Məmmədovu (2465) üstələyib.

Naxçıvanlı zəka sahiblərindən beynəlxalq qrossmeyster Ürfan Sevdimalıyev beynəlxalq usta Ülviyyə Fətəliyevanı (2301) məğlub edərək aktivinə bir xal yazdırmağı bacarıb. 16 yaşlı zəka sahibimiz, beynəlxalq qrossmeyster Pərviz Qasımov isə iranlı Bageri Maziara məğlub olub. Digər həmyerlimiz, FİDE ustası Toğrul Həsənzadə bu turda ustalığa namizəd Aydın Süleymanlı ilə qarşılaşıb və qələbə qazanıb.

Bu turdan sonra turnir cədvəlinə 7 şahmatçı başçılıq edir.

"Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalının "B" qrupunda liderlər yavaş-yavaş öz mövqelərini möhkəmlətməkdədirlər. Bu tur daha çox Naxçıvan şahmatçısı Vüsal Abbasovun (2126) qələbəsi ilə yadda qalıb. O, 3 turda maksimum xal qazanan 9 zəka sahibindən biridir.

Şahmat festivalının "C" qrupunda isə artıq 13 şahmatçı liderdir. Onlardan 3-ü Naxçıvan şahmat məktəbinin yetirməsidir.

**Xəbərlər şöbəsi**

## Mərkəzin budəfəki qonaqları Ordubad rayonunun məktəbliləri idi

***Şahbuz rayonunda istifadəyə verilmiş Ağbulaq İstirahət Mərkəzi artıq məktəblilərin sevimli ünvanına çevrilib. Bu ilin aprel ayının əvvəllərindən sınaq imtahanlarında yüksək nəticələr göstərənlərin və az təminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzində istirahətinə start verilib. Mərkəzin budəfəki qonaqları Ordubad rayonunun məktəbliləri idi. Qeyd edək ki, bu layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, muxtar respublika Təhsil, Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən həyata keçirilir. Növbəti səfərdə biz də mərkəzdə olduq, müəllim və şagirdlərin təəssüratlarını öyrəndik.***



***Selcan ZEYNALOVA – Xanağa kənd tam orta məktəbinin riyaziyyat-informatika müəllimi:*** – Muxtar respublikada son illərdə məktəblilərin, yeniyetmə və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, onların dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda tərbiyə olunması, asudə vaxtlarının səmərəli təşkili üstün istiqamət verilən sahələrdən birinə çevrilib. Təbii ki, bu da hər birimizi ürəkdən sevindirir. Burada həm biz müəllimlərin, həm də şagirdlərin istirahəti yüksək səviyyədə təşkil edilib. Şagirdlər burada mərkəzlə yaxından tanış oldular. İki gün ərzində şagirdlərdə böyük sevinc, ruh yüksəkliyi hiss etdim. Burada təşkil edilən müxtəlif tədbirlər uşaqların qabiliyyət və yaradıcılıq potensiallarının inkişafına müsbət təsir göstərir, onları daha yaxşı oxumağa həvəsləndirir. Uşaqların əhval-ruhiyyəsindən də yaxşı görünür ki, onların bura gəlməsi yaxşı istirahət etmələri ilə bərabər, yaradıcılıqlarını inkişaf etdirmələrinə səbəb olub. Belə istirahətlərin təşkili ölkəmizin gələcəyinə göstərilən qayğı kimi dəyərləndirirəm.



***Nuray RZAYEVA – Ordubad şəhərindəki internat məktəbinin şagirdi:*** – VIII sinifdə təhsil alıram. İlk dəfədir ki, belə bir mərkəzdə istirahət edirəm. Mənim üçün həyatımın ən yaddaqalan günlərindən biridir. Şahbuz rayonunun səfalı təbiəti haqqında ancaq kitablarda oxumuş, televiziyada bir neçə veriliş izləmişdim. Ümumiyyətlə, Naxçıvanın bölgələrini gəzmək, görməli yerləri ilə tanış olmaq çoxdankı arzum idi. Ağbulaq İstirahət Mərkəzinə gedəcəyimi eşidəndə çox sevindim. Yolboyu yurdumuzun gözəlliklərini izlədim. Şahbuzun, həqiqətən də, gözəlliklər diyarı olduğunu gördüm. Mərkəzdə çox sayda həmyaşıdlarımla tanış olmaq imkanı əldə etdim. Onlarla yaxşı vaxt keçirdik, gördüklərimiz və öyrəndiklərimiz barədə xeyli söhbət etdik. Buraya gələn şagirdlərin hamısı yaxşı oxuyan uşaqlardır. Sonuncu sınaq imtahanında 625 bal toplamışam. Gələcək imtahanlarda bu nəticəni bir qədər də artırmağa çalışacağam ki, mənə göstərilən etimadı doğruldum.



***Fərid ƏLİYEV – Behrud kənd tam orta məktəbinin şagirdi:*** – Mən X sinifdə təhsil alıram. Burada yaxşı istirahət edirəm. Ötən il bu istirahət mərkəzinə şagirdlərin gəldiyini eşitmişdim. Bu dəfə Ağbulağa mənim də gedəcəyimi eşidəndə çox sevindim. Bu istirahət mərkəzi çox gözəldir. Hər yer təmiz, səliqəlidir. İstirahət üçün çox gözəl şərait yaradılıb. Müxtəlif idman yarışlarının keçirilməsi ürəyimcə oldu. Burada komandalar təşkil edib futbol oynadıq. İki gün ərzində vaxtın necə gəlib keçdiyini hiss etmədim. İntellektual oyunlarda biliklərimizi ortaya qoyduq, oxuduqlarımızı daha da möhkəmləndirdik. Bütün bu tədbirlər bizim yaxşı oxumağımız üçün təşkil edilir. Təbii ki, biz də bunun müqabilində daha yaxşı oxumalıyıq.



***Fatma HÜSEYNLİ – Unus kənd tam orta məktəbinin şagirdi:*** – IX sinif şagirdiyəm. Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir ki, gəlirəm. Əvvəlcə mərkəzlə yaxından tanış olduq. Daha sonra nahar yeməyinə yollandıq. Burada bizə milli mətbəximizin ləziz yeməkləri təqdim olundu. Nahardan sonra müxtəlif idman yarışlarında iştirak etdik. Daha sonra rəssam bizə ustad dərsi keçdi. Rəssam Ağbulağın füsunkar mənzərələrini kətan üzərinə köçürərək etüd şəklində çəkdiyi rəsm əsəri haqqında bizə ətraflı məlumat verdi. Mərkəzdə təşkil olunmuş şahmat və dama turniri də bizim diqqətimizi çəkdi. Burada olduğumuz müddətdə heç darıxmadıq. Bu tədbiri təşkil edənlərə minnətdarlığımızı bildiririk.

**Hazırladı: ✍ Sara ƏZİMOVA**

***İtmişdir***

Süleymanzadə Sunay Həsən oğlunun adına olan 0200170932 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 372